**"INTER PROJECT" QSC** öz iş fəaliyyətində Azərbaycan Respublikası qanunvericiliyini, müvafiq yerli və beynəlxalq norma və standartları, həmçinin öz Nizamnaməsini rəhbər tutaraq məhsul və xidmətlərini *"Ətraf mühitə qayğı"nı* əsas tutmaqla təqdim edir.

Bununla bağlı aşağıdakı məsələlər daim diqqət mərkəzindədir:

- Maraqlı tərəflərin ehtiyac və gözləntilərinin öyrənilməsi, təhlili, qiymətləndirilməsi və uyğunluğun təmin edilməsi məqsədi ilə öhdəliklərin müəyyən edilməsi və onların əsasında məqsədlərin təyini və icrasının təmin edilməsi, maraqlı tərəflərin məmnunluğunun arzu olunan səviyyəsinin təmin edilməsi;

- İş fəaliyyətinin icrasının düzgün planlaşdırılması, təşkili və nəzarət tədbirləri vasitələri ilə resursların effektiv və səmərəli istifadəsi;

- İş sahələrində ətraf mühit (ətraf mühit aspektinin qiymətləndirilməsi) ilə bağlı qayda və normaların tətbiqi və onlara riayət olunmasını işçi heyətindən, podratçı/subpodratçı və digər tərəfdaş təşkilatlardan tələb olunması və yerinə yetirilməsinə nəzarətin təmin edilməsi;

- Cəmiyyətin əməkdaşlarının müvafiq təlimlərə cəlb edilərək, onların öz iş fəaliyyəti çərçivəsində ətraf mühitin qorunması üçün fəal iştirakının təmin olunması;

- ISO 14001:2015 standartının tələblərinə uyğun olaraq inteqrasiya olunmuş idarəetmə sistemi tərkibində ətraf mühiti idarəetmə sisteminin işləkliyinin təmin edilməsi, davamlı nəzarət və təhlillər apararaq təkmilləşdirilməsi;

- Potensial qəza və fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün ayrılan qüvvə və vasitələrin, habelə bütün işçi heyətinin zəruri hazırlıq səviyyəsinin təmin edilməsi. Baş vermiş hadisənin təsirinin azaldılması və fəsadlarının aradan qaldırılmasının təmin edilməsi;

- Ekoloji cəhətdən müsbət imicə malik, özünün və təqdim etdiyi məhsulun və xidmətin zəruri lisenziya, sertifikatları olan, habelə ekoloji təmiz məhsula üstünlük verən təchizatçılarla iş fəaliyyətinin qurulmasına üstünlük verilməsi;

- Tullantıların azaldılması, onların ətraf mühitə atılmasının qarşısının alınması, zərərsizləşdirilməsi və utilizasiyası üzrə tədbirlərin həyata keçirilməsi, ətraf mühit aspektlərinin idarə olunması üzrə tədbirlərin planlanması və həyata keçirilməsinin təmin edilməsi;

- Fəaliyyət nəticələrinin yaxşılaşdırılması məqsədilə idarəetmə sisteminin yararlılığının, adekvatlığının və effektivliyinin davamlı olaraq təkmilləşdirilməsi tədbirlərinin planlanması və yerinə yetirilməsinin təmin edilməsi, zəruri resurslarla təminatın həyata keçirilməsi, habelə daxili kommunikasiya imkanlarını genişləndirərək, hər bir işçinin aidiyyatı prosesin qurulmasında ətraf mühit aspektlərinin təyin və qiymətləndirilməsində, tətbiqində və inkişafında aktiv iştirakının təmin edilməsi.

**"INTER PROJECT" QSC-nin Direktoru** **İlqar Rəhimov**